ABAD




# İşğaldan azad edilmiş ərazilərdə yerli brendlərin yaradılması üçün "ABAD" vasitəsilə dəstək tədbirlərinin həyata keçirilməsi üzrə TƏQDİMAT

# “ABAD” nədir?

**“ABAD” ölkə başçısının Fərmanı ilə “ASAN xidmət”in tabeliyində yaradılan publik hüquqi şəxsdir.**

**“ABAD”ın əsas səciyyəvi xüsusiyyətləri:**

- *“ABAD” özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərir;*
- *“ABAD” ƏDV ödəyicisi kimi vergi qeydiyyatındadır və bununla da satış bazarında bərabərhüquqlu iştirakçıdır;*
- *“ABAD” “ABAD”çıların* bütün istehsal prosesinə “İdeyadan rəflərə” yanaşması ilə dəstək verərək yekunda ərsəyə gələn müxtəlif çeşidli məhsulların satışının təşkilinə fokuslanır;*
- *“ABAD” daxili bazarda “handmade” qida brendi və sənətkarlıq üzrə hədiyyə/suvenir brendi olaraq tanınır;*
- *Biznes qurulmasına qərar vermiş şəxslər ABAD-ın dəstəyi ilə minimum risklərlə özünü bu sahədə sınaya bilir.*






## "ABAD" aşağıdakı məqsədlərə xidmət edir:

- Ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakının təmin edilməsi;
- Rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılması;
- Mikro, kiçik və orta sahibkarlığın inkişafının stimullaşdırılması;
- Əhalinin məşğulluq səviyyəsinin artırılması.

# *"ABAD"çı kimdir?*

- *Öz biznesini "ABAD" müşayiəti ilə quran və davam etdirən*
- *Xidmətlərindən faydalanaraq "ABAD"la müqavilə bağlayan*
- *Proqrama daxil olan benefisiarlara*

**"ABAD"çı adı verilir**






# "ABAD" necə dəstək göstərir?

## "ABAD" iki əsas və iki yeni istiqamət üzrə "ABAD"çıların formalaşdırılmasını təmin edir:

- *Dekorativ-tətbiqi xalq sənətkarlığı məhsulları (suvenir);*
- *Qida məhsulları;*
- *Qeyri-qida məhsulları (yeni).*

## "ABAD"çılara aşağıdakı xidmətlər göstərir:

- *Xüsusi layihələr çərçivəsində istehsal avadanlıqlarından istifadə edilməsinə şəraitin yaradılması;*
- *Qida və sənətkarlıq sahəsində mütəxəssis dəstəyi;*
- *Marketinq;*
- *Brendinq;*
- *Dizayn;*
- *Hüquqi yardım;*
- *Mühasibatlıq;*
- *Təlimlər;*
- *Qablaşdırma;*
- *Etiketlənmə;*
- *Logistika;*
- *Anbar;*
- *Satışın təşkili və s.*



## *"ABAD"çıların məhsullarının satış metodları*

- *"ABAD" etno butiklərində satış;*
- *Supermarketlərdə satış;*
- *Korporativ müştərilərə satış.*



# DƏSTƏK PROSESİ NECƏ HƏYATA KEÇİRİLİR?

Vətəndaş elektron ünvanda (saytda) qeydiyyatdan keçir



# DƏSTƏK PROSESİ NECƏ HƏYATA KEÇİRİLİR?

Müraciət edənin adı reyesterə daxil edilir → "ABAD" tərəfindən ideya qiymətləndirilir → Qiymətləndirmə müsbət olarsa, vətəndaş "ABAD"ın baş ofisinə dəvət olunur → Ehtiyaclar müəyyənləşdirilir →

Potensial "ABAD"çı ilə müqavilə bağlanılır → Xidmətlər portfelinə daxil edilmiş zəruri xidmətlər göstərilir → Məhsul satışa çıxarılır → Satışdan gələn gəlir faiz bölgüsü ilə "ABAD"çının bank hesabına köçürülür

→ "ABAD" tərəfindən vergi və DSMF (aylıq/rüblük) uçotu həyata keçirilir

# *“İdeyadan rəflərə” yanaşması ilə*
# İSTEHSAL PROSESİNİN TƏŞKİLİ

İstehsalatın planlaşdırılması və keyfiyyətə nəzarət

Dizayn və qablaşdırma

Anbar işinin təşkili

Sifarişlərin qəbulu

Məhsulların çatdırılması və logistikası

Satışların təşkili

# ABAD

**Xidmət göstərilmiş "ABAD"çıların sayı**
**616**

| MMC | | |
|---|---|---|
| 7% | 40% | 53% |
| 48 | 244 | 324 |

## İqtisadi regionlar üzrə "ABAD"çılar

| | | | |
|---|---|---|---|
| Bakı | 328 | Qarabağ | 8 |
| Şəki - Zaqatala | 89 | Gəncə-Daşkəsən | 6 |
| Abşeron-Xızı | 41 | Şərqi Zəngəzur | 9 |
| Quba-Xaçmaz | 42 | Mil-Muğan | 8 |
| Dağlıq Şirvan | 31 | Qazax-Tovuz | 5 |
| Lənkəran-Astara | 34 | Şirvan-Salyan | 1 |
| Mərkəzi Aran | 13 | Naxçıvan | 1 |

## Ümumi dövriyyə
## 12.6 milyon ₼

**"ABAD"çıların gəliri**
**10.7 milyon₼**

***Qida-127-21%***
***Sənətkarlıq-469-76%***
***Digər-20-3%***

## İllər üzrə satış göstəriciləri



# “ABAD”çının xərclərinə nə daxildir?

## “ABAD”çıların xərcləri:

- Biznesin qurulmasına və aparılmasına çəkilən xərclər (məsələn: xammal, kommunal xərclər, işçilər varsa onlara çəkilən xərclər və s.);
- Elektron imza və möhürün alınması;
- Dövlət qeydiyyatı prosedurları üzrə rüsumlar;
- Bank hesabının açılması və növbəti bank xərcləri;
- Digər rəsmiyyət xarakterli işlər üzrə xərclər.



## *Sənətkar "ABAD"çıların xərcləri:*

- ***"ABAD"a ödənilən məbləğ:***
  *- "ABAD" xidmətləri üzrə ödəniş "ABAD" vasitəsilə həyata keçirilmiş satış əməliyyatlarının yekunları üzrə əldə olunan gəlirin kiçik hissəsinin "ABAD"ın bank hesabında saxlanılması yolu ilə ödənilir. Vəsaitin qalan hissəsi isə ikitərəfli müqavilə əsasında "ABAD"çının bank hesabına köçürülür;*
  *- Satılmış suvenirlərə münasibətdə isə bölgü bir qayda olaraq 75% "ABAD"çıya 25% isə "ABAD"a prinsipi ilə aparılır.*
- ***Vergilər:***
  *- Ənənəvi əl üsulu ilə istehsal edilmiş suvenir məhsullarının (zərgərlik məhsulları istisna olmaqla) gəlir vergisindən azad olunduğunu nəzərə alaraq sənətkar "ABAD"çılar bir qayda olaraq gəlir vergisi ödəyicisi kimi vergi qeydiyyatına alınır və vergidən azad edilir;*
  *- İşğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə fəaliyyət göstərən sahibkarlar, o cümlədən zərgərlər də daxil olmaqla sənətkar "ABAD"çılar mənfəət və gəlir vergisindən ümumiyyətlə azaddırlar.*

- ***DSMF (sosial sığorta haqqları):***

  *- Sənətkar "ABAD"çılar fəaliyyət göstərdikləri regionlardan asılı olaraq 86.25 və ya 77.63 və ya 69 və ya 51.75 və ya 43.13 AZN həcmində sosial sığorta haqqı ödəyirlər;*

  *- İşçiləri olan "ABAD"çılar isə işçilərə ödənilən əmək haqqından asılı olaraq əlavə sosial sığorta haqqları ödəyirlər;*

  *- Lakin "Sosial sığorta haqqında" Qanunun 14-1-ci maddəsi və Nazirlər Kabinetinin 08.12.2023-cü il tarixli 445 nömrəli qərarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar, o cümlədən "ABAD"çılar tərəfindən ödənilmiş sosial sığorta haqqlarının 100%-i dövlət büdcəsi hesabına subsidiyalaşdırılaraq geri qaytarılır.*





## *Qida və qeyri-qida məhsullarının istehsalı ilə məşğul olan "ABAD"çıların xərcləri:*

- ***"ABAD"a ödənilən məbləğ:***

  *- "ABAD" xidmətləri üzrə ödəniş "ABAD" vasitəsilə həyata keçirilmiş satış əməliyyatlarının yekunları üzrə əldə olunan gəlirin kiçik hissəsinin "ABAD"ın bank hesabında saxlanılması yolu ilə ödənilir. Vəsaitin qalan hissəsi isə ikitərəfli müqavilə əsasında "ABAD"çının bank hesabına köçürülür;*

  *- Satılmış qida və qeyri-qida məhsullarına münasibətdə bölgü faizlə aparılmır. Bölgü bazar iqtisadiyyatı şəraitində rəqabət mühiti nəzərə alınmaqla məhsulun son istehlakçıya satış qiyməti (M), supermarketin gəliri (S) və "ABAD"çının xərcləri ilə gəliri (A) nəzərə alınmaqla hər "ABAD"çı və məhsul üzrə fərdi qaydada hesablanır. ("ABAD"ın bank hesabında saxlanılan məbləğ= M-S-A).*





- ***Vergilər:***

  *- İlkin kənd təsərrüfatı məhsulları (yumurta, bal, süd, ət, meyvə-tərəvəz və s.) gəlir, mənfəət və əlavə dəyər vergilərindən azaddırlar (Qeyd: "ABAD" hazırda yalnız yumurta və bal məhsulunun satışını gerçəkləşdirir);*

  *- Digər məhsulların satışından əldə olunan gəlirdən 20% həcmində gəlir vergisi hesablanılaraq ödənilir. Lakin muzdlu işçi sayı 3 nəfər və daha artıq olan sahibkarlara münasibətdə gəlirin 75%-i gəlir vergisindən azad edilir. Bununla da satışdan əldə olunan gəlirdən faktiki olaraq 5% həcmindən çox olmayaraq gəlir vergisi ödənilmiş olur;*

  *- Əlavə Dəyər Vergisi (ƏDV) ödəyicisi kimi qeydiyyatda olan" ABAD"çıların xərcləri artmır. Çünki "ABAD" özü ƏDV ödəyicisidir və "ABAD"çıya ödənilən məbləğin üzərində ƏDV məbləğini də "ABAD"çıya ödəyir;*

  *- İşğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə fəaliyyət göstərən sahibkarlar, o cümlədən" ABAD"çılar mənfəət və gəlir vergisindən ümumiyyətlə azaddırlar.*

- ***DSMF (sosial sığorta haqqları):***

  - Sahibkarlar, o cümlədən "ABAD"çılar fəaliyyət göstərdikləri regionlardan asılı olaraq 86.25 və ya 77.63 və ya 69 və ya 51.75 və ya 43.13 AZN həcmində sosial sığorta haqqı ödəyirlər;

  - İşçiləri olan "ABAD"çılar isə işçilərə ödənilən əmək haqqından asılı olaraq əlavə sosial sığorta haqqları ödəyirlər;

  - Lakin "Sosial sığorta haqqında" Qanunun 14-1-ci maddəsi və Nazirlər Kabinetinin 08.12.2023-cü il tarixli 445 nömrəli qərarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar, o cümlədən "ABAD"çılar tərəfindən ödənilmiş sosial sığorta haqqlarının 100%-i dövlət büdcəsi hesabına subsidiyalaşdırılaraq geri qaytarılır.



# “ABAD”çı olmaq üçün nə etməli?

## *Müraciətçilər aşağıdakı şərtləri nəzərə almalıdırlar:*

- *Müraciətçilər işğaldan azad edilmiş ərazilərin rezidentləri olmalı və bilavasitə həmin ərazidə fəaliyyət göstərən (və ya fəaliyyət göstərmək istəyən) şəxslər olmalıdırlar;*
- *Yalnız suvenir, qida və qeyri-qida məhsullarının istehsalı ilə məşğul olan (və ya məşğul olmaq istəyən) şəxslər olmalıdırlar;*
- *Biznesinin aparılması və gələcək kommersiya fəaliyyətinin təkmilləşdirilməsini şəxsi vəsaiti hesabına həyata keçirmək üçün kifayət qədər resurslara, təcrübəyə və potensiala malik olmalı və bu məqsədlərlə kreditlərin (o cümlədən güzəştli kreditlərin) alınmasına hazır olduqlarını bildirməlidirlər.*



## *Müraciətdə qeyd olunması vacib olan məlumatlar:*

- *Müraciətçinin adı, soyadı, ata adı;*
- *Təhsili, bilik və bacarıqları, təcrübəsi;*
- *Əlaqə vasitələri (email, telefon, ünvan);*
- *Məşğul olmaq istədiyi fəaliyyət istiqaməti və bu sahədəki potensialı barədə məlumat*
- *İstehsal edəcəyi məhsulun rəqabətə davamlı olduğunun əsaslandırılması üçün həmin məhsulun üstünlükləri, xüsusiyyətləri və digər eynicinsli mallardan fərqli cəhətləri barədə məlumat;*
- *Potensiala dair təsdiqedici sənədlər (məsələn: torpaq sahəsinə dair və ya qida təhlükəsizliyi üzrə alınmış sənədlər və s.) və foto-video fayllar*
- *Və digər zəruri məlumatlar.*





## Müraciət metodları:

- Sayt (abad.gov.az/join-abad)
- Telefon (108(4))

Bizi sosial şəbəkələrdə izləyin və fəaliyyətimizlə daha yaxından tanış olun

|abadmerkez

www.abad.gov.az info@abad.gov.az
108(4)

# SİZİ "ABAD"ÇI SIRALARLIMIZDA GÖRMƏKDƏN MƏMNUN OLARIQ!

